Azərbaycan Respublikasının
2025-ci il 1 may tarixli Qanunu ilə
təsdiq edilmişdir

**“Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 20 illiyi (2005–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsviri**

**Maddə 1. Medalın ümumi təsviri**

“Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 20 illiyi (2005–2025)” Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra — medal) bürüncdən tökülmüş, diametri 38 mm olan qızılı rəngli səkkizguşəli ulduz formalı metal lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Səkkizguşəli ulduzun ön tərəfi qızılı rəngdə relyeflə haşiyələnmişdir, içi ağ rəngdədir. Ulduzun xarici guşələri arasındakı bucaqlarda qızılı rəngdə şüalar yerləşdirilmişdir. Mərkəzdə qırmızı fonda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi emblemindən ibarət kompozisiya təsvir olunmuşdur.

2.2. Kompozisiyanın yuxarı hissəsində qövs boyunca qara rəngdə basma üsulu ilə “AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ” sözləri qızılı rəngdə dekorativ lentin üzərində yazılmışdır. Kompozisiyanın aşağı hissəsində Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərinə uyğun dekorativ lentin təsviri verilmişdir. Dekorativ lentin üzərində sol tərəfdə alt-alta qızılı rəngdə “2005” və “2025” rəqəmləri, sağ tərəfdə isə qızılı rəngdə dəfnə budağının üstündə içi ağ rəngdə olan “20 İL” sözləri yazılmışdır.

2.3. Bütün yazılar, rəqəmlər və elementlər relyeflidir.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfi hamar səthlidir. Yuxarı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.2. Arxa tərəfin mərkəzində “AZƏRBAYCAN RESPUBLİKASI FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN 20 illiyi” sözləri və həmin sözlərin altında “(2005–2025)” rəqəmləri həkk olunmuşdur. Arxa tərəfin aşağı hissəsində milli ornament təsvir olunmuşdur.

3.3. Bütün yazılar, rəqəmlər və ornament relyefli və qızılı rəngdədir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, üst hissəsi 40 mm x 4 mm, alt hissəsi 40 mm x 6,5 mm ölçüdə qızılı rəngli metal lövhədən, orta hissəsi

37 mm x 50 mm ölçüdə xara lentdən ibarət düzbucaqlı lövhəyə halqa və ilgək vasitəsilə birləşdirilir. Alt hissədə olan qızılı rəngli metal lövhənin üzərində milli ornament həkk olunmuşdur.

4.2. Xara lent mərkəzdə eni 3 mm olan sarı, mərkəzdən kənarlara doğru isə ardıcıllıqla eni 2 mm olan qırmızı, 3 mm olan göy, 10 mm olan qırmızı və 2 mm olan sarı rəngli şaquli zolaqlara bölünmüşdür.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, metaldan düzəldilmiş və eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçüdə qəlib əlavə olunur.

**“Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 20 illiyi (2005–2025)”**
**Azərbaycan Respublikasının yubiley medalı**




ARXA TƏRƏF